# AZƏRBAYCANDA İXRACIN DİVERSİKASİYASINDA KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN ROLUNUN ARTIRILMASI İSTİQAMƏTLƏRİ

*Məmmədov Saqib Yaşar oğlu*
*Mingəçevir Dövlət Universiteti, Azərbaycan*

Kiçik və orta sahibkarlıq (KOS) subyektlərinin iqtisadiyyatda oynadığı rol iri müəssisələrə nisbətən daha əhəmiyyətlidir. Xüsusən də ümumi daxili məhsulun (ÜDM), məşğulluğun artırılması, eyni zamanda büdcənin vergi ehtiyaclarının ödənilməsi kimi məsələlərində KOS-lar əvəzedilməz imkanlara malikdir. Odur ki, inkişaf arzusunda olan dövlətlərdə KOS-lara dəstək sahibkarlığa dəstəyin əsas növü hesab olunur. Elə təcrübə də KOS-ların iqtisadi inkişafın əsas təminatçısı, məşğulluğun və yeniliklərin vacib mənbəyi olduğunu təsdiqləyir.

Ölkəmizdə bazar münasibətlərini formalaşdığı müasir dövrdə kiçik və orta sahibkarlıq bölməsinin yaradılması və inkişaf etdirilməsi cəmiyyətin sosial və iqtisadi yeniləşməsində çox mühüm rol oynayır. Dövlət kiçik və orta sahibkarlığı müdafiə etməklə orta sinfin formalaşması üçün imkan əldə etmiş olur. Bundan başqa, kiçik və orta biznesin fəaliyyət dairəsinin geniş olması büdcə vəsaitinin tamamlanmasının səmərəli formasıdır. Bununla yanaşı, qeyd etmək lazımdır ki, iqtisadiyyatın yenidən qurulmasının labüdlüyü obyektiv olaraq ona doğru aparır ki, ölkə vətəndaşlarının çox böyük hissəsi sahibkarlıq fəaliyyəti ilə maşğul olur.

Ölkəmizdə bazar münasibətlərini formalaşdığı müasir dövrdə kiçik və orta sahibkarlıq bölməsinin yaradılması və inkişaf etdirilməsi cəmiyyətin sosial və iqtisadi yeniləşməsində çox mühüm rol oynayır. Dövlət kiçik və orta sahibkarlığı müdafiə etməklə orta sinfin formalaşması üçün imkan əldə etmiş olur. Bundan başqa, kiçik və orta biznesin fəaliyyət dairəsinin geniş olması büdcə vəsaitinin tamamlanmasının səmərəli formasıdır. Bununla yanaşı, qeyd etmək lazımdır ki, iqtisadiyyatın yenidən qurulmasının labüdlüyü obyektiv olaraq ona doğru aparır ki, ölkə vətəndaşlarının çox böyük hissəsi sahibkarlıq fəaliyyəti ilə maşğul olur. Belə şəraitdə dövlətin kiçik və orta sahibkarlığı ağıllı və məqsədyönlü formada müdafiə etməsi labüddür.

Ölkəmizdə davamlı iqtisadi inkişaf əsasında iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin, inklüzivliyinin və sosial rifahın daha da artırılması məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə milli iqtisadiyyat və iqtisadiyyatın 11 sektoru üzrə ümumilikdə 12 strateji yol xəritəsi hazırlanmışdır. Məhz sözügedən Fərmanın tətbiqi ilə əlaqədar dövlət başçısının "Kiçik və orta sahibkarlıq sahəsində idarəetmənin daha da təkmilləşdirilməsi haqqında" 2017-ci il 28 dekabr tarixli 1771 nömrəli Fərmanı əsasında Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) yaradılmışdır.

Azərbaycan Respublikası Prezidenti 29 may 2019-cu il tarixində "Qeyri-neft sektorunda rəqabətqabiliyyətli daxili istehsalın dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqındanin 2018-ci il 19 sentyabr tarixli 497 nömrəli Sərəncamının icrası ilə əlaqədar "Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin rəqabətqabiliyyətli istehsalının stimullaşdırılması məqsədilə daxili bazar araşdırmalarına dövlət dəstəyi

göstərilməsi Qaydası" təsdiq edilməsi ilə bağlı Fərman imzalamışdır. Qayda mikro, kiçik və orta sahibkarlıq subyektlərinin (bundan sonra – KOB subyektləri) rəqabətqabiliyyətli istehsalının stimullaşdırılması məqsədilə daxili bazar araşdırmalarına (bundan sonra – daxili bazar araşdırmaları) dövlət dəstəyinin göstərilməsi qaydasını, forma və şərtlərini müəyyən edir.

Mikro, kiçik və orta sahibkarlığın inkişafı ölkəmizdə uğurla həyata keçirilən iqtisadi siyasətin prioritet istiqamətlərindəndir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2017-ci il 28 dekabr tarixli Fərmanı ilə yaradılmış Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) başlıca fəaliyyət istiqamətləri də məhz mikro, kiçik və orta sahibkarlıq (KOB) sahəsində idarəçiliyin müasir tələblərə uyğunlaşdırılmasından, KOB-ların inkişafının dəstəklənməsindən və onların ölkə iqtisadiyyatındakı rolunun artırılmasından ibarətdir. 2020-ci ildə də Agentlik bu istiqamətdə fəaliyyətini davam etdirmişdir.

Ölkədə sahibkarlığın inkişafı sahəsində aparılmış dövlət siyasəti və həyata keçirilmiş işlərin nəticəsi olaraq 2020-ci il ərzində qeydiyyata alınmış sahibkarlıq subyektlərinin sayı ümumilikdə 13% artaraq 2021-ci ilin yanvarın 1-i tarixinə 1217 972 olub. Onların 13%-i (155435) hüquqi şəxslərin, 87%-i (1062537) fərdi sahibkarların payına düşür. 2020-ci il ərzində fərdi sahibkarlar istisna olmaqla statistik vahidlərin sayı 6,3% artaraq 2021-ci ilin yanvarın 1-i vəziyyətinə 155435 olub ki, onların da 9619-u 2020-ci il ərzində yaradılıb. Qeydiyyata alınmış statistik vahidlərin 127 517-si mikro, 7282-si kiçik, 2916-sı orta, 678-i isə iri sahibkarlıq subyektidir.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə edilmişdir.
2. Avropa üçün Kiçik Biznes Aktının tətbiqinin qiymətləndirilməsi. KOB Siyasəti İndeksi: Şərq Tərəfdaşlığı ölkələri 2020.
3. Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin rəsmi internet səhifəsi. https://smb.gov.az.
4. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin rəsmi internet səhifəsi. https://www.stat.gov.az.


## İNVESTİSİYA FƏALİYYƏTİNİN NƏZƏRİ-METODOLOJİ VƏ İQTİSADİ MƏSƏLƏLƏRİ


*Namazova Aynur Məhəmməd qızı*
*Mingəçevir Dövlət Universiteti, Azərbaycan*


"İnvestisiya"nı müəyyən fiziki şəxslər və ya firmalar tərəfindən müəyyən bir əmlakın alınması kimi, yaxud da fond birjasında qiymətli kağızların alınması kimi dəyərləndirirlər.

Menecerin sorğu kitabında investisiya sahibkarın gəlir və ya faiz əldə etmək məqsədi ilə "uzunmüddətli kapital qoyuluşu şəklində həyata keçirdiyi məsrəflərin